

# Bir şəhid ailənin tarixçəsi

*Teymur ƏHMƏDOV*

**(əvvəli ötən saylarımızda)**

Rəsmi sənədlərdən məlum olur ki, ağır döyüşlərin birində iki ayağından yaralanan Nəcəf çoxlu qan itirmiş, zəifləmişdir. Ona görə Saratov hərbi xəstəxanasında bir müddət müalicə olunur, komissiyadan keçəndən sonra Qorki şəhərində bərpa institutuna göndərilir. 1942-ci ilin baharında Moskvaya, evlərinə qayıdan kimi Daşkənddə yaşayan Gülsüm xanıma 30 mart 1942-ci il tarixli məktubunu göndərir: ”Əziz ana! Mən çox şadam ki, səndən xoş xəbər eşitdim. Sən artıq bilirsən ki, mən sentyabrın 20-də (1941-ci ildə) hər iki ayağımdan yaralandım, dekabr ayınadək Saratov xəstəxanasında, sonra Qorkiyə göndərildim. İndi martın 10-dan burada, Moskvada bir ay müalicə olunacam...”.

Nəcəf yeni rütbə alması, paqonlarına ”3 kubik” vurması barədə anasına xoş xəbər verir: ”Məni yeni rütbəmlə təbrik edə bilərsən. Deməli, indi mən ”Baş texnik leytenantam, yadında saxla”.

### *Saratov şəhərindən göndərdiyi məktubun*

**bir yerində yazır: ”Ana, mən indi yeni döyüşə hazırlaşıram. Tezliklə, yəqin ki, sentyabrın ortalarında cəbhəyə gedəcəm. Sən eşidibsənmi, Qərb cəbhəsində almanlar darmadağın edilib, Cənubi-Qərb cəbhəsində də onları vurmaq lazımdır. Almanları Qafqaza buraxmaq olmaz”.**

Müharibə başlanan gündən Nəcəf silaha sarılmışdı. O, general-leytenant G.Sviridovun mexanikləşdirilmiş korpusunun tərkibində ön genişmiqyaslı əməliyyatda alman ordusu ilə qanlı döyüşlərdə qəhrəmancasına döyüşürdü. Yenidən dörd ay Cənubi-Qərb cəbhəsində alman ordusunun sıxışdırılıb qovulmasında iştirak etmişdi.

Döyüşlərin birində ağır yaralanmış, beş ay hərbi xəstəxanada müalicə olunmuşdur. Məhz bu zaman Gülsüm xanım Müdafiə Komissarlığına xahişlə müraciət etmiş, Nəcəfin 1941-1943-cü illərdə onun Stalinqradın müdafiəsində və Cənubi-Qərb cəbhəsində döyüşdüyünü, ağır yaralanıb 5 ay müalicə olunduğunu, Stalinqradın müdafiəsi və igidliyə görə döyüş mükafatı almasını, alman, ingilis, türk dillərini bilməsini, mübarizə Nəcəfin İ.Stalin adına Hərbi Akademiyada təhsilinə imkan vermədi. 2-ci kursdan könüllü cəbhəyə getdi. Xahiş edir ki, onun xidmətlərini və səhhətini nəzərə alıb təhsilini davam etdirməyə icazə versinlər. Müraciətin cavabından səs-soraq gecikirdi.

### *1943-cü il avqustun axırlarında*

hərbi xəstəxanadan buraxılan günün ertəsi Nəcəf Nərimanov ölkənin Cənub-Qərb istiqamətində mövqe tutan general-leytenant K.V.Sviridovun mexanikləşdirilmiş korpusuna göndərildi. Həmin korpusun daxil olduğu Cənub cəbhəsi komandanlığının üçüncü qvardiya diviziyası mühüm tapşırığa hazırlaşırdı: Tufandan qabaq dəryada görünən sakitlik kimi döyüş meydanında da əməliyyat səngimişdi. Lakin Stalinqradda qarşı-qarşıya dayanmış hərbi hissələrdə müharibənin taleyini həll edəcək böyük döyüşə hazırlıq gedirdi. General-leytenant K.V.Sviridovun korpusu Stalinqradın yaxınlığında mövqe tutmuşdu. Qvardiya baş texnik leytenantı Nəcəf Nərimanov öz vzvodu ilə yorulmaq bilmədən korpusda tankların texniki vəziyyətini nəzərdən keçirirdi. Bu dövrdə Nəcəf kommunist partiyası sıralarına qəbul edildi. Bundan xəbər tutan Gülsüm xanım ümumittifaq radiosu ilə çıxışlarının birində öz sevincini bildirdi. Oğluna ürək sözlərini çatdırdı.

**- Mənim əzizim! Kommunist Partiyamızın üzvü olmağın haqqındakı xəbərin məni çox sevindirdi. Oğlum, səni ürəkdən təbrik edirəm! Vaxtın bu qədər tez keçdiyinə inana bilmirəm. Axı, lap bu yaxınlaradək sən pioner idin... İndi komandirsən, partiya üzvüsən. Sənin atan bu partiyanın sıralarında uzun illər boyu xalqımızın azadlığı və səadəti uğrunda mübarizə aparmışdır. O, gecə-gündüz işləməyi bacarırdı, dincəlməyi məsləhət görən həkimlərə qulaq asmırdı. Nəcəf, yadında saxla ki, sən Nəriman Nərimanovun oğlusan. Bilirəm ki, bunu bir dəqiqə də olsun unutmursan. Sənin öhdənə şərəfli vəzifə - vətəni faşist quldurlarından müdafiə etmək vəzifəsi düşmüşdür. Faşistlərin törətdikləri cinayətlərdən nə qədər qəzəbləndiyimi ifadə etməyə söz tapmıram. Bu vəhşilər bizim xoşbəxt həyatımıza qəsd etmişlər.**

Mən, Şərqin mənim kimi minlərlə qadını yalnız Sovet hakimiyyəti illərində çadramızı atmış, oxumuş, işləmiş, övladlarımızı tərbiyə edə bilmişik. Sən yaşa dolmusan, mən təhsilimi başa vurmuşam. Deməli, biz uzun zaman xoşbəxt yaşaya bilərik. Müharibə başlandı və bizi bir-birimizdən ayırdı. Lakin düşmən xalqımıza heç vaxt diz çökdürə bilməyəcəkdir. Əzizim, məndən nigaran qalma. Moskvadayam. Hamı qayğı göstərir...

Özünü necə hiss etdiyin barədə, işlərin haqqında mənə tez-tez yaz. Döyüş yoldaşlarına məndən salam yetir...

1942-ci ilin sentyabrında Alman ordusunun böyük zirehli dəstələri, yüzlərlə təyyarələri həmləyə keçdi. Sovet ittifaqı marşalı V.İ.Çuykov yazır ki, çarpışmanın qızğın vaxtında ”Alman faşist komandanlığı şəhərə daha üç təzə diviziya gətirdi, güclü zərbə qruplaşması yaratdı. Düşmən təyyarələrinin sayı əvvəllər də hər gün mindən çox olurdu, 1942-ci il oktyabrın 14-



də isə rekord rəqəmə - 2540-a çatdı. Ətrafda hər şey alovlanırdı. Düşmən artilleriyası və aviasiyası neft çənlərini yandırırdı. Alova bürünmüş neft axırdı. Alovun hündürlüyü bəzən 800 metrə çatırdı. Elə bil torpaq da yanırdı, Volqa da...

### *Adama elə gəlirdi ki,*

nəinki torpaq, həm də səma bomba, mina, mərmi partlayışından sarsılır... Toz və tüstü dumanları günəşin işığını kəsir, gündüzü gecəyə çevirir. Bu alov dənizinin ortasında, arası kəsilməyən bombardmanlar içərisində sanki bütün canlılar məhv olmalı idi, insan əsəbləri bu cəhənnəm gərginliyinə dözməyə elə bil daha qadir deyildi. Lakin əsgərlərimiz dözə bildilər. Onlar öz mövqelərində sarsılmaz qala kimi dayandılar”.

**Bütün dünyanın diqqəti ölüm-dirim müharibəsinə dikilmişdi. Gülsüm xanım da, ölkə vətəndaşları kimi Sovet Məlumat Bürosunun radio verilişlərini həyəcanla dinləyirdi. Nəcəfin bu tufanın mərkəzində olmasından xəbərsiz idi.**

1943-cü ilin fevralında faşist strategiyasının iflası xəbəri dünya antifaşist müqavimət hərəkatında qələbəyə dərin inam yaratdı. Müharibənin gedişində dönüş yarandı. Əzilən alman ordusunun geriçəkilmə mərhələsi başlandı.

1943-cü ilin baharında Gülsüm xanım beş aydan sonra oğlu Nəcəfdən aldığı məktubdan onun Stalinqrad döyüşlərində olmasından xəbər tutdu. Nəcəf yazırdı:

”Əziz ana, mən də orada idim. Dörd ay orada qaldım. Göndərdiyin bağlamanı qışda, faşistlər bizi lap Volqaya sıxışdıran zaman aldım. Amma axırı yaxşı məlumdur. Biz sarsılmadıq. Stalinqrad alman qoşunlarının böyük bir qrupunun məzarı oldu”.

### *Narahatçılıqla oğlunun intizarını çəkən*

**ananın ağır məqamda bu məktubu oxuduğu anda keçirdiyi hissi təsəvvür etmək çətindir. Gülsüm xanım məktubu oxuyan kimi, Nərimanovun iş otağına keçib Tanrıya böyük şükranlığını bildirdi. Amma qəhərdən özünü saxlaya bilmədi.**

Donetskdən sıxışdırılıb çıxarılan alman hərbi hissələri geri çəkilirdi. Onların yeganə çıxış yolu Volnovaxa şəhərindən idi. Mexanikləşdirilmiş tank korpusuna alman hərbi hissələrinə ağır zərbə vurub Volnovaxadan çıxarmaq, düşmənin inadlı müdafiəsinə imkan verməmək əmr olunmuşdu.

Bu əmrin uğurla yerinə yetirilməsində general-leytenant K.V.Sviridovun mexanikləşdirilmiş korpusu misilsiz qəhrəmanlıq göstərdi. Volnovaxa şəhəri alındı. Alman hərbi hissələri darmadağın edildi.

Qvardiya baş texnik leytenantı Nəcəf Nərimanovun vzvodu dəmiryolu magistral qovşağını keçib müdafiə mövqeyi tutmuşdu. Nikolay Sazanov onu görüb maşını saxladı, Nəcəflə səmimi görüşüb tankçıları təbrik etdi. Sonra Nəcəfə dedi:

- Səni axtarırdım. Moskvaya göndərilməyin barədə əmr alınmışdır. Tez qərargaha get, general səni görmək istəyir.

Nəcəf vağzala çatmamış buludlu tutqun havada 300 alman təyyarəsi göründü, Volnovaxaya çatar-çatmaz mərmi səpələdi. Ölümsaçan dağıdıcı mərmilər yeri-göyü titrətdi: Ərşə qalxan toz-duman çəkildikcə dağılmış dəmiryolu vağzalının, ətraf küçə və həyətlərin, inzibati binaların və evlərin xarabaları görünürdü. Yüzlərlə mübariz döyüşçü həlak olmuşdu.

Volnovaxa şəhərinin döyüş meydanında Nəcəfin həlak olması xəbəri Gülsüm Nərimanovanı ildırım kimi vurdu. Böyük ana qəlbinin pünhan acı-ağrısını, zəmanəyə, bəşəri cinayətə, haqsızlığa, zülmə ittiham olan naləsini oxucuya necə təqdim edəsən? Müdrik Mövlanə deyir: Şəhidə ağlamazlar!.. Ürək parça-tikə olursa nə etmək lazımdır?!

**Ana ürəyi dözmədi, o yataqda yarımcan oldu. O, hər şeyi unutdu. Həkimlərin ciddcəhdi hədər getmədi. Hər gün səhərdən-axşama şəfqət bacısı çarpayıda halsız uzanan xəstə Gülsüm xanıma xidmət edirdi: dərman içirər, təzyiqini ölçər, yeməyinə nəzarət edərdi.**

Nəhayət, bir az yaxşılaşsa da, bütün günü yatağında susqun, halsız uzanan Gülsüm ana axşam çağları tənha qalanda xalatını geyinər, adyalına bürünüb Nəriman Nərimanovun iş otağına çəkilərdi: olub-keçən hadisələri düşünər, sızıldar, iztirab çəkərdi, için-için ağlardı. ”Bundan sonra necə yaşaya bilərəm. Axı, necə yaşaya bilərəm... Əlinə qələmi alıb nə isə yazmaq istəsə də, fikrini cəmləşdirə bilmirdi”.

Bir gün için-için ağlaya-ağlaya xatirə dəftərinə taqətdən düşənədək nə isə yazdı: ”Həlak olmuşdur... Nə böyük dəhşət. Axı, o, mənim gözümün ağı-qarası yeganə oğlumdur. Cəmi 24 yaşı var. İnsanın həyatının çiçəkləndiyi dövr. Ömründə heç nə görmədi... Qarşımda sual durur: bundan sonra necə yaşamalıyam? Yenidən necə ömür sürə bilərəm? Nəyə doğru can atmalıyam? Həyatımın məqsədi nədən ibarətdir? İndi heç kəsim yoxdur. Mənim üçün heç nə mövcud deyil: nə təbiətin gözəlliyi, nə də adamlar... hər tərəfdə dəhşətli boşluq yaranmışdır, hər şeyi təhrif olunmuş şəkildə görürəm... Məndə nə qədər qüvvə, inam vardı, hər gün nə qədər sevinc gətirirdi. Oğlumu gözləyirdim, səbirsizliklə gözləyirdim.

### *Lakin dəhşətli an gəlib çatdı*

Hər şey yox oldu. Sanki dünya qaranlıqlaşdı, dünya mənə dar oldu. Ürəyim ağrıyır, hər tərəfdə gözümə qan görünür...

Nəcəf, mənim yeganə oğlum, fərəhim, sən haradasan, bu vəhşilər sənə nə etdilər? Axı, üç ildi ki, gözləyirdim. Sən qayıdacağına söz vermişdin. Məgər anaya verilən vədi bu cür yerinə yetirirlər?..

Oğlum həlak olmuşdur. O, mənim üçün hər şey idi, dost idi, ana idi, ata idi. Ömründə bir dəfə də mənə kobud söz demədi. Cəbhədən həmişə yazırdı: ”Anacan, özünə fikir ver, mənə bundan başqa heç nə lazım deyil. Mən səni həmişə gümrah, cavan görmək istəyirəm. Qələbə ilə evə qayıtmaq - yeganə arzum budur”. Uşaqlıqda, atası öləndə demişdi: ”Anacan, ağlama, görürsən ki, mən atama oxşayıram. Böyüyəndən sonra atam kimi olacağam. Yaxşımı? İndi məni öp, yoxsa mən də ağlayaram”. Bəs nə oldu, oğlum? Niyə sözünə dönük çıxdın, məni tək qoydun?..

**(ardı olacaq)**